Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 22.04.2014-cü tarixli 1417050000002400 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

Əlavə - 3

***"Azərbaycan Respublikasında kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə kommersiya hüquqi şəxsin ləğv edilməsi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın dərc olunması ilə bağlı müraciətlərin qəbulu və dərcolunma faktını təsdiq edən sənədin verilməsi" elektron xidməti üzrə inzibati reqlament***

## 1. Ümumi müddəalar

**1.1. Elektron xidmətin adı:** *Azərbaycan Respublikasında kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə kommersiya hüquqi şəxsin ləğv edilməsi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın dərc olunması ilə bağlı müraciətlərin qəbulu və dərcolunma faktını təsdiq edən sənədin verilməsi.*

**1.2. Elektron xidmətin məzmunu:** *Bu xidmət kommersiya hüquqi şəxsin ləğv edilməsi zamanı Azərbaycan Respublikasında kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə onun ləğvi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın dərc olunması ilə bağlı müraciətlərin elektron qaydada qəbulunu və dərcolunması faktını təsdiq edən sənədin verilməsini əhatə edir.*

**1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:** *Azərbaycan Respublikası Prezidentinin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 23 may 2011-ci il tarixli, 429 nömrəli Fərmanının 2-ci və 2-1-ci hissələri, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 820-IVQD nömrəli Qanununun tətbiqi və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2013-cü il tarixli 62 nömrəli Fərmanının 3.1-ci bəndi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş, 1 nömrəli əlavə - "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları", həmin Qaydalara 1 nömrəli əlavə, eləcə də "Elektron xidmət növlərinin Siyahısı"nın 7.58-ci bəndi.*

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:** *Azərbaycan Respublikasının Vergilər Nazirliyi.*

**1.5. Elektron xidmətin digər icraçıları:** *Yoxdur.*

**1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** *Tam avtomatlaşdırılmışdır.*

**1.7. Elektron xidmətin icra müddəti:** *Azərbaycan Respublikasında kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə kommersiya hüquqi şəxsin ləğv edilməsi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın dərc olunması ilə bağlı müraciətlərin qəbulu istifadəçinin tələb olunan məlumatları daxil etməsindən və bunun informasiya sistemində emalı müddətindən asılıdır. Dərcolunma faktını təsdiq edən sənəd "Vergilər" qəzetində kommersiya hüquqi şəxsin ləğv edilməsi, kreditorların tələblərinin bildirilməsi qaydası*

*və müddəti haqqında ilk məlumat dərc edildiyi gün kommersiya hüquqi şəxsin elektron qutusuna ötürülür.*

**1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:** *Kommersiya hüquqi şəxsin ləğvi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın dərc olunması ilə bağlı edilən müraciətlər qəbul olunur və onların dərcolunma faktını təsdiq edən sənədlər verilir.*

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

**2.1. Elektron xidmətin növü:** *İnteraktiv.*

**2.2. Elektron xidmət üzrə ödəniş:** *Ödənişsiz.*

**2.3. Elektron xidmətin istifadəçiləri:** *Kommersiya hüquqi şəxslər*

**2.4. Elektron xidmətin təqdim olunma yeri:** *https://www.e-taxes.gov.az/ http://www.e-gov.az*

**2.5. Elektron xidmət barədə məlumatlandırma:**

- *http://www.taxes.gov.az*
- *https://www.e-taxes.gov.az*
- *http://www.e-gov.az*
- *Vergi ödəyicilərinə xidmət strukturları (müvafiq idarə və şöbələr)*
- *Vergi ödəyicilərinə xidmət mərkəzləri*
- *Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Çağrı Mərkəzi (195)*
- *Vergilər qəzeti*
- *office@taxes.gov.az.*

**2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:** *Elektron xidmətin göstərilməsi üçün hər hansı bir sənədin elektron formada təqdim edilməsi tələb olunmur.*

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

**3.2. İnteraktiv elektron xidmətlər üçün sorğu:** *İnteraktiv xidmətin istifadəçilərinin gücləndirilmiş elektron imzası olmalıdır.*

**3.2.1. Sorğunun formalaşdırılması:**

*Müraciət edən şəxs İnternet Vergi İdarəsi portalı vasitəsilə "Onlayn kargüzarlıq" bölümü üzərindən gücləndirilmiş elektron imzanı daxil etməklə "Yeni müraciət" düyməsini sıxır və siyahıdan "Vergilər" qəzetinə müraciətin göndərilməsi (H\ş ləğv edilməsi barədə)" adlı sənəd növünü seçır. Açılan ekranda şəxs VÖEN-i, kommersiya hüquqi şəxsin ləğv edilməsi barədə qərarın tarixini, kreditorların tələblərinin bildirilməli olduğu tam ünvanı və kreditorların tələblərinin irəli sürülməsi müddəti barədə məlumatları müvafiq xanalara daxil edir və "İrəli" düyməsini sıxır."İrəli" düyməsi sıxıldıqdan sonra proqram tərəfindən avtomatik hazırlanan mətn ekrana çıxır. Müraciət edən şəxs mətn ilə tanış olduqdan sonra məlumatı "İmzala və göndər" düyməsini sıxmaqla təsdiqləyir.*

**3.2.2. Sorğunun qəbulu:** *Məlumat təsdiqləndikdən sonra onun dərc olunması ilə bağlı müraciətin qəbulu barədə "Bildiriş" ekrana çıxır, eyni zamanda kommersiya hüquqi şəxsin elektron qutusuna göndərilir.*

**3.3. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:**

**3.3.1. Sorğunun yerinə yetirilməsindən imtina halları (tam və qismən avtomatlaşdırılmış xidmətlərin uyğun xüsusiyyətləri nəzərə alınmaqla):** *İstifadəçi sorğunun formalaşdırılması üçün bu reqlamentin 3.2-ci yarımbəndində nəzərdə tutulmuş məlumatları səhv daxil etdikdə sorğu qəbul edilmir. Səhv məlumatın daxil edilməsi istifadəçinin yenidən sorğu verməsinə mane olmur.*

**3.4. Sorğunun icrası:**

**3.4.1. Ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat:**

*Kommersiya hüquqi şəxsin ləğv edilməsi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın qəbul edilməsi və dərcolunması faktı barədə "Bildiriş"in təqdim edilməsi, məsul şəxs – Azərbaycan Respublikasının Vergilər Nazirliyinin İnformasiya texnologiyaları və proqram təminatı şöbəsinin əməkdaşı.*

*Elektron xidmətin göstərilməsinə Azərbaycan Respublikasının Vergilər Nazirliyinin İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı baş idarəsi və İnformasiya texnologiyaları və proqram təminatı şöbəsi məsuliyyət daşıyır.*

**3.4.2. hər bir inzibati əməliyyatın məzmunu, yerinə yetirilmə müddəti və/və ya maksimal yerinə yetirilmə müddəti:**

**<u>Kommersiya hüquqi şəxsin ləğv edilməsi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın hazırlanması və onun qəbul olunması:</u>**

*Müraciət edən şəxs İnternet Vergi İdarəsi portalı vasitəsilə "Onlayn kargüzarlıq" bölümü üzərindən gücləndirilmiş elektron imzanı daxil etməklə "Yeni müraciət" düyməsini sıxır və siyahıdan "Vergilər" qəzetinə müraciətin göndərilməsi (H\ş ləğv edilməsi barədə)" adlı sənəd növünü seçir. Açılan ekranda şəxs VÖEN-i, kommersiya hüquqi şəxsin ləğv edilməsi barədə qərarın tarixini, kreditorların tələblərinin bildirilməli olduğu tam ünvanı və kreditorların tələblərinin irəli sürülməsi müddəti barədə məlumatları müvafiq xanalara daxil edir və "İrəli" düyməsini sıxır. "İrəli" düyməsi sıxıldıqdan sonra proqram tərəfindən avtomatik hazırlanan mətn ekrana çıxır. Müraciət edən şəxs mətn ilə tanış olduqdan sonra məlumatı "İmzala və göndər" düyməsini sıxmaqla təsdiqləyir. Məlumat təsdiqləndikdən sonra onun dərc olunması ilə bağlı müraciətin qəbulu barədə "Bildiriş" ekrana çıxır, eyni zamanda kommersiya hüquqi şəxsin elektron qutusuna göndərilir.*

**<u>Kommersiya hüquqi şəxsin ləğv edilməsi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın dərcolunma faktını təsdiq edən sənədin verilməsi:</u>**

*Kommersiya hüquqi şəxsin ləğv edilməsi və kreditor tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumat "Vergilər" qəzetində dərc edildiyi gün qəzetin əməkdaşı qəzetin tarixini və nömrəsini müvafiq xanalara daxil edib "Qəbul" düyməsini sıxır. "Qəbul" düyməsi sıxıldıqda kommersiya hüquqi şəxsin elektron qutusuna məlumatın dərcolunma faktını təsdiq edən "Bildiriş" göndərilir.*

**3.4.3. İnzibati əməliyyatda iştirak edən digər dövlət orqanı haqqında məlumat:** *Yoxdur.*

**3.4.4. Hər bir inzibati prosedurun nəticəsi və onun verilməsi qaydası:** *Elektron xidmətin göstərilməsi zamanı məlumatın qəbul edilməsi real vaxt rejimində informasiya sistemində məlumatların emalı müddətindən asılı olaraq aparılır və müraciət edən şəxsə məlumatın qəbul edilməsinə dair "Bildiriş" verilir. Məlumatın dərcolunma faktını təsdiq edən "Bildiriş" isə şəxsə məlumat "Vergilər" qəzetində dərc edildiyi gün təqdim olunur.*

**3.5. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:**

**3.5.1. Nəzarət forması:** *Elektron xidmətin göstərilməsi zamanı aparılan proseslərə Azərbaycan Respublikasının Vergilər Nazirliyinin proqram təminatı vasitəsilə onlayn qaydada nəzarət edilir.*

**3.5.2. Nəzarət qaydası:** *Bu prosesdə yaranan hər hansı anlaşılmazlığın aradan qaldırılması və ya metodiki dəstəyin göstərilməsi məqsədilə Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Çağrı Mərkəzi (195)fəaliyyət göstərir.*

**3.6. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:** *İstifadəçi elektron xidmətlə bağlı onu razı salmayan istənilən məsələ barədə inzibati qaydada yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) və məhkəməyə şikayət edə bilər.*

**3.6.1. İstifadəçinin şikayət etmək hüququ haqqında məlumat:** *Elektron xidmətin göstərilməsindən və ya elektron xidmətin göstərilməsindən imtinadan qanunvericiliyə uyğun olaraq inzibati qaydada və məhkəməyə şikayət verilə bilər.*

**3.6.2. Şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya:** *İnzibati şikayətin forması "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun 74-cü maddəsinə uyğun olmalıdır.*

**3.6.3. Şikayətin baxılma müddəti:** *Şikayət inzibati orqana verildikdə, şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunun 78-ci maddəsinə əsasən, 1 ay müddətinə baxılır.*

*Məhkəməyə verilən şikayətə Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxılır.*

* * *